AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Əlyazması hüququnda

**LAMİƏ NİZAMİ QIZI NAĞİYEVA**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MAARİFPƏRVƏRLƏRİNİN TƏHSİLİN DEMOKRATİKLƏŞDİRİLMƏSİ UĞRUNDA MÜBARİZƏSİ

**5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I – 2 0 1 5**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin «Ümumi pedaqogika» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Fərrux Abbas oğlu Rüstəmov**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, əməkdar elm xadimi*

**Rəsmi opponentlər:** **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, əməkdar müəllim*

**Mircəfər Mirməsi oğlu Həsənov**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*professor, əməkdar müəllim*

**Aparıcı təşkilat:** Bakı Slavyan Universitetinin pedaqogika və psixologiya kafedrası

Müdafiə "_22_" _09_ 2015-ci ildə saat ___ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" __________ 2015-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi:** **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Ulu Öndərimiz Heydər Əliyev deyirdi: «Azərbaycanın təhsili, məktəbləri sona çatan XX əsrdə çox böyük nailiyyətlər əldə edib. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri, xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının təhsil tarixi yazılsa (bu tarix yazılmalıdır), şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və öz qiymətini alacaqdır».[1]

Azərbaycan xalqının təhsil-tərbiyə ilə bağlı min illər boyu yaratdığı mili-mənəvi dəyərlər, zəngin xəzinə, xronoloji ardıcıllıqla və mərhələlərlə sistemli olaraq öyrənilməmişdir. Xalqımızın təhsil sahəsində malik olduğu zəngin irsini, maarifçi ziyalıların və görkəmli şəxsiyyətlərin mütərəqqi ideya və fikirlərini öyrənməklə, onlardan müasir dövrün tələblərinə uyğun bəhrələnməklə böyük nailiyyətlər qazanmaq mümkündür. Ümummilli liderimiz Heydər Əliyev haqlı olaraq deyirdi ki, nəslimiz öz milli-mənəvi dəyərlərini öyrəndikcə, öz keçmişindən qürur duyur və onlarda öz soyuna, kökünə, millətinə bağlılıq daha da möhkəmlənir. Bu gün təhsil sahəsində aparılan hər bir yeniləşmə və təkmilləşmə, ilk növbədə, milli zəmin üzərində qurulmalıdır. Bunun üçün isə qiymətli xəzinəni Azərbaycan maarifçilərinin ta qədimdən bu günə qədər təhsil-tərbiyə sahəsində yaratdığı nəzəriyyə və konsepsiyalar, eləcə də onların əməli fəaliyyətləri təşkil edir. Bunların öyrənilməsi və milli təhsil quruculuğuna gətirilməsi önəmli bir vəzifədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq deyib ki, Azərbaycanın təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir.[2]

Azərbaycan təhsilinin bütün dövrləri və mərhələləri eyni peşəkarlıqla araşdırılıb tədqiq və təhlil olunmasa da, bu sahədə xeyli iş görülmüş, doktorluq (Əhməd Seyidov, Mehdi Mehdizadə, Hüseyn Əhmədov, Əliheydər Həşimov, Aben Kərimov, Ağahəsən Rzayev, Əjdər Ağayev, İbrahim Mollayev, Sürəyya Əliyeva, Əmrulla Paşayev, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə) və namizədlik (Mərdan Muradxanov, Saleh Xəlilov, Mirzə Məmmədov, Zümrüd Axundova, Hadı Rəfibəyli, Fikrət Seyidov, Saleh

---

[1] Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı, "Təhsil", 2002, s. 18

[2] Prezident İlham Əliyev və Azərbaycanda təhsilin inkişafı (2003-2008) Bakı, 2008, səh. 9

Pəncəli, Mircəfər Həsənov, İramin İsayev, Ədalət Cəlilov, Əli Adıgözəlov, Hümeyir Əhmədov, Həsən Bayramov, Vidadi Bəşirov, Kamal Camalov, Tovuz Eminli, Əhməd Əhmədov, Mətanət Əkbərova, Ramiz Əliyev, Sevinc Əzimova, Məmməd Gülməmmədov, Fazil Həsənov, İslam Həşimov, Bəhruz Nəsirov, Teyyubə Hüseynova, Tahir Kərimli, Aytən Qəhrəmanova, Allahverdi Quliyev, Zemfira Mehdizadə, Zemfira Mehrəliyeva, Əliyənnağı Məhərrəmov, İsmət Məmmədova, Sahilə Orucova, Vahid Rzayev və başqaları) dissertasiyaları müdafiə olunmuş, Azərbaycan məktəb və pedaqoji fikir tarixinin tədqiq ilə bağlı yeni bir elmi istiqamətin əsası qoyulmuşdur.

Bu sahədə alimlərimizin fədakar əməyi öz bəhrəsini vermiş, akademik Hüseyn Əhmədovun təşəbbüsü ilə hələ keçən əsrin 70-ci illərində «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» kursunun proqramı hazırlanmış, Azərbaycan və rus dillərində nəşr olunmuş, APİ-də (indiki ADPU-da) Y.Məmmədəliyev adına Naxçıvan Pedaqoji İnstitutunda (indiki NDU-da) Tiflis Dövlət Pedaqoji İnstitutunda xüsusi kurs kimi sınaqdan keçirilmiş, keçmiş İttifaq Maarif Nazirliyinin pedaqogika üzrə elmi metodik şurasının pedaqogika tarixi komissiyasının 1981-ci il 15 dekabr tarixli iclasında müzakirə edilərək bəyənilmiş və digər müttəfiq respublikalarda da analoji kursların təşkili vacib sayılmışdır. Akademik Hüseyn Əhmədov bu sahədəki axtarışlarını davam etdirərək, həmin proqrama müvafiq dərslik[1] hazırlamış, çapına nail olmuşdur. Artıq həmin kurs bütün ali pedaqoji məktəblərdə tədris olunur, yeni-yeni araşdırmalar, dərs vəsaitləri meydana gəlir. Bu sahədə M.Mərdanovun 4 cildlik «Azərbaycan təhsil tarixi»[2] əsəri elmi-nəzəri, praktik əhəmiyyəti ilə seçilir. Kitabda Azərbaycan xalqının ta qədim dövrdən bu günə qədər təhsil və pedaqoji fikir tarixinin inkişaf istiqamətləri araşdırılır. Böyük elmi səriştə və ciddi məsuliyyətlə, yüksək həvəs, şövqlə və zövqlə hazırlanan bu kitab tarixi təcrübə və müdrikliyi müasirlərinə çatdırır, tarixi-pedaqoji irsə müasir baxış həyata keçirir. Bu kitab Azərbaycan tarixinin salnaməsidir.

Görülən bütün işlərə kölgə salmadan deyə bilərik ki, Azərbaycan təhsil və pedaqoji fikir tarixinin tədqiqatdan kənarda qalan sahələri çoxdur. Sovet dövründə aparılan tədqiqatların özlərində də marksizm-leninizm metodologiyasına istinad edildiyindən, problemlər müəyyən məhdudiyyət daxilində araşdırılmış, hakim konsepsiyaya uyğun gəlməyən fikirlər atılmış,

---

[1] Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, "Elm və təhsil" 2014

[2] Mərdanov M. Azərbaycan təhsil tarixi. I-IV cild Bakı, "Təhsil" 2011, 2012

beləliklə də təhsil və pedaqoji fikir tariximizin bəzi işıqlı cəhətləri tədqiqatlardan təcrid edilmişdir. Bu baxımdan XX əsrin əvvəllərində Azərbaycanda təhsilin demokratikləşdirilməsində milli maarifpərvərlərimizin elmi-pedaqoji, publisistik, maarifçilik fəaliyyətləri istisnalıq kəsb etmir. Elə həmin səbəbdən də «XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin təhsilin demokratikləşdirilməsi uğrunda mübarizəsi» mövzusunu tədqiqat predmetinə çevirməyi məqsədəuyğun sayırıq.

XX əsrin əvvəllərində Azərbaycanda genişlənməkdə olan maarifçilik ideyalarının və pedaqoji hərəkatın əsas xüsusiyyəti millətin mənəvi diriliyi problemi ilə bilavasitə bağlı idi. Xalqın tarixinə və mədəniyyətinə, onun istiqlal şüurunun taleyinə artan maraq milli məktəblərin, milli dərsliklərin, milli kadrların hazırlanmasını zəruri edirdi. Elə məktəb ki, orada millətin dili, tarixi, mədəniyyəti öyrənilirdi. XIX əsrin axırlarında yaranan yeni məktəb hərəkatı təhsilin bütün sahələrində islahatların aparılmasını zəruri edirdi. Təlimin ana dilində aparılması, ana dili dərsliklərinin yaradılması, təhsilin məzmununun milliləşdirilməsi, yeni təlim üsullarının tətbiqi, mənəvi tərbiyənin yeni məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi, məktəblərin dünyəviləşdirilməsi, bir sözlə təhsilin demokratikləşdirilməsi məktəb islahatı uğrunda mübarizənin əsas parametrlərini təşkil edirdi. Dünyəvi məktəb problemi maarifçiliyin avropalaşmaq ideyası ilə bilavasitə bağlı idi. M.F.Axundov yazırdı ki, əgər xalq tərbiyə edilməzsə və bütün camaat savadlı olmazsa, çəkdiyimiz bütün zəhmətlər heçə, puça çıxacaqdır. Dövrün zəka sahibləri Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Əlibəy Hüseynzadə, Əhməd Ağayev, Əlimərdan bəy Topçubaşov, Nəriman Nərimanov, Məmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyov, Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Fərhad Ağazadə və xalqımızın digər onlarla işıqlı zəka sahibləri milli mənafe uğrunda fədakarlıqla çalışır, millətin maariflənməsi üçün mətbuat nümunələri yaradır, qəzet və jurnallar nəşr edir, xeyriyyə cəmiyyətləri təşkil edir, ana dilli məktəblər yaradır, milli dərslik yazır, uşaq ədəbiyyatı nümunələri yaradırdılar. Azərbaycan maarifpərvərləri xalqa milli – mənəvi dirilik, fəallıq, ictimai namus, həmrəylik, hüquq, əxlaq, milli xilas, qurtuluş, ictimai azadlıq, mücadilə və mübarizə savadı öyrətmək istəyirdilər. Bu dövrdə Azərbaycanda milli özünüdərk hərəkatı, o zamana qədər heç vaxt görünməmiş bir səviyyəyə yüksəlmişdi. Siyasi bütövlüyünü itirmiş, dünyanın müasir texnologiyasından geri qalmış böyük bir xalqın ziyalıları milli mənlik şüurunun inkişafı uğrunda mücadiləyə qalxmışdılar. Onlar inanırdılar ki, məktəb açıb camaatı maarifləndirməklə, ana dilində qəzet və jurnallar nəşr edib ideoloji təbliğat aparmaqla, xeyriyyə cəmiyyətləri qurub müxtəlif problemləri müzakirə

etməklə, qurultaylar keçirib müsəlman müəllimlərini eyni məqsəd uğrunda mübarizəyə istiqamətləndirməklə, ana dilində dərsliklər yaratmaqla, yəni maarifçiliklə xalqın tarixi mənliyini özünə qaytarmaq mümkündür. Bu dövrdə yetişən Azərbaycan ziyalıları dünyagörüşünə görə eyni bir siyasi partiyaya mənsub olmasalar da, ideya və amalları eyni idi. İnqilabçı proletariatın liderləri olan N.Nərimanov, S.M.Əfəndiyev, Ə.Axundov, M.H.Musəvi, H.Terequlov, hesab edirdilər ki, pedaqoji fikrə inqilabi ruh gətirməklə, yeni cəmiyyət qurmaqla təhsil–tərbiyə işini yeniləşdirmək mümkündür. C.Məmmədquluzadə, M.Ə.Sabir, Ö.F.Nemanzadə, M.S.Ordubadi, Ə.Nəzmi kimi inqilabçı-demokratik ziyalılar burjua demokratik inqilabının əsas məsələlərində yenilik mövqeyində durub, çar hökümətinin mürtəce maarif siyasətini, sxolastik təlim metodlarını, köhnə-ənənəvi məktəbləri tənqid edirdilər. Bu ziyalıların içərisində maarifçi–demokratik ziyalılar (H.Zərdabi, A.Səhhət, A.Şaiq, H,Mahmudbəyov, F.Köçərli, R.Əfəndiyev, S.M.Qənizadə F.Ağazadə, Ü.Hacıbəyov, M.Maqomayev və b.) millətin mənəvi diriliyi məsələsini ortaya atmaqla, dünyəvi təhsili inkişafın, tərəqqinin açarı sayıblar. Ümummilli intibaha çalışan Ə.Hüseynzadə, Ə.Ağayev türkçülüyə, islam birliyinə çağırışın ideoloqları kimi çıxış edirdilər. Liberal burjua mövqeyində dayanan ziyalılar da vardı: onların bu fəaliyyətini XIX əsrin I yarısında Rusiyada mövcud olan «slavyanofillər»lə «qərbçilər»in fəaliyyətinə bənzətmək olar. O dövrdə siyasətçiləri və pedaqoqları təhsil–tərbiyədə xəlqilik ideyası daha çox düşündürürdü. Avropa təhsilində baş verən yeniliklər Rusiyada, o cümlədən milli ucqarlarda məktəb və pedaqoji fikrin inkişafına güclü təsir göstərirdi. A.İ.Gertsen «slavyanofillər»lə «qərbçilər»in fəaliyyətini təhlil edərək deyirdi ki, bizim eyni olmayan bir məhəbbətimiz var. Biz ikibaşlı qartal kimi müxtəlif tərəflərə baxırdıq, amma ürəyimiz bir vururdu.[1] Bu ziyalıların mübarizə apardıqları əsas məsələ təhsilin demokratikləşdirilməsi problemi idi. Onlar təhsilin demokratikləşdirilməsini həyata keçirmək məqsədilə milli məktəblər, milli müəllim kadrları, təlimin ana dilində aparılması, təhsilin məzmununun milliləşdirilməsi, səmərəli təlim metodlarının tətbiqi, qadın təhsili, dünyəvi elmlərin tədrisi ilə bağlı fədakarlıqla çalışdılar, maarifçi ideya və fəlsəfi konsepsiya işləyib hazırladılar. Bizim ideya sərvətimiz olan həmin konsepsiyalar Azərbaycan Demokratik Respublikası dövründə uğurla tətbiq olundu. Biz bu gün onların həmin fikirlərini, ideya və konsepsiyalarını tarixdən bu günə gətirməyi, təhsil quruculuğuna tətbiq etməyi bacarmalıyıq. Tarixdə bu günü görmək

[1] Rüstəmov F. Pedaqogika tarixi. Bakı:Təhsil, 2010 s.483

lazımdır. Tarixin pedaqoji təcrübəsindən keçmiş ideyaları aşkarlayaraq, milli düşüncəmizə gerçək modellər, siyasi–ideoloji düsturlar verməliyik. Onların müasir milli dövlət quruculuğu prosesində necə həyata keçirildiyini izləmək məqsədilə tarixi pedaqoji irsin ən yaxşılarını seçib götürməliyik. Azərbaycanda uğurlu təhsil islahatı aparmaq üçün keçmiş pedaqoji irsin mükəmməl öyrənilməsinə zəruri ehtiyac vardı. Prof. F.Rüstəmov yazır: «Pedaqogika tarixi köhnəlmiş, həyatın rədd etmiş olduğu müddəalar, prinsiplər, qaydalar sistemi deyil, təlim–tərbiyə məsələlərinin müasir problemlərinin həlli üçün mühüm mənbələrdən biridir, keçmişdə diqqət veilməyib, kənara atılmış, köhnə, indiyə kimi yanlış hesab olunan ideyaların özü də bir çox hallarda müasir mütərəqqi ideyalar üçün təkanverici bünövrə rolunu oynaya bilər»[1] Elə buna görə də Azərbaycanın təhsil tarixi ətraflı tədqiq olunmalıdır.

**Tədqiqatın obyektini** XX əsrin əvvəllərində Azərbaycanda təhsilin və pedaqoji fikrin inkişafı təşkil edir.

**Tədqiqatın predmetini** XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin təhsilin demokratikləşdirilməsi uğrunda mübarizəsi təşkil edir.

**Tədqiqatın məqsədi** XX əsrin əvvəllərində Azərbaycanda təhsilin inkişafını şərtləndirən ictimai-pedaqoji, mədəni şəraiti üzə çıxarmaqdan, təhsilin demokratikləşdirilməsini zəruri edən amilləri müəyyənləşdirməkdən, pedaqoji hərəkatın inkişaf istiqamətlərini səciyyələndirməkdən, maarifpərvərlərimizin yeni üsullu məktəb, təlimin ana dilində aparılması, milli müəllim kadrları hazırlığı, milli dərslik və uşaq ədəbiyyatı nümunələri yaradılması, qadın azadlığı və təhsili uğrunda mübarizəsininin mahiyyətinə aydınlıq gətirməkdən, ümumiləşdirməkdən və sistemləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri:**

- XX əsrin əvvəllərində Azərbaycanda təhsilin inkişafını şərtləndirən ictimai-pedaqoji, mədəni şəraiti üzə çıxarmaq;
- XX əsrin əvvəllərində Azərbaycanda təhsilin demokratikləşdirilməsini zəruri edən amillər müəyyənləşdirmək;
- XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji hərəkatın inkişaf istiqamətlərini müəyyənləşdirmək;
- yeni məktəb uğrunda mübarizədə Azərbaycan maarifpərvərlərinin fəaliyyətini təhlil etmək;

[1] Rüstəmov F. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri (1920-1991-ci illər). Bakı: Bakı Universiteti, 1998, s.7

- təlimin ana dilində aparılması uğrunda mübarizədə Azərbaycan maarifpərvərlərinin fəaliyyətini üzə çıxarmaq;

- milli müəllim kadrları hazırlığında Azərbaycan maarifpərvərlərinin mübarizəsinin mahiyyətini açmaq;

- milli dərslik və uşaq ədəbiyyatı nümunələri yaratmaq uğrunda mübarizədə Azərbaycan maarifpərvərlərinin fəaliyyətini səciyyələndirmək;

- Azərbaycan maarifpərvərlərinin qadın azadlığı və təhsili uğrunda mübarizəsini səciyyələndirmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplər, metodlar, vasitələr və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları:** tarixi-müqayisəli metod, təhlil-tərkib metodu, induktiv və deduktiv metod, nəzəri təhlil, arxiv sənədlərinin öyrənilməsi.

**Tədqiqatın elmi yeniliyi** XX əsrin əvvəllərində Azərbaycanda təhsilin demokratikləşdirilməsini zəruri edən amillər üzə çıxarılır, Azərbaycan maarifpərvərlərinin bu sahədəki xidmətləri fəlsəfə doktoru dissertasiyası səviyyəsində araşdırılır, ümumiləşdirilir və sistemləşdirilir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- XX əsrin əvvəllərində Azərbaycanda təhsilin inkişafını ictimai-pedaqoji, mədəni şərait şərtləndirmişdir;

- XX əsrin əvvəllərində Azərbaycanda yeni ictimai-pedaqoji hərəkat təhsilin demokratikləşdirilməsini zəruri etmişdir;

- XX əsrin əvvəllərində yeni üsullu məktəblərin yaradılması, təlimin ana dilində aparılması, milli müəllim kadları hazırlığı, milli dərslik və uşaq ədəbiyyatı nümunələrinin yaradılması, qadınların təhsilə cəlb olunması, xeyriyyə cəmiyyətlərinin yaradılması Azərbaycan maarifpərvərlərinin uzunmüddətli mübarizələrinin nəticəsində olmuşdur;

- milli dilə, təlimin ana dilində aparılmasına-milli diriliyə münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində heç vaxt XX əsrin əvvələrində olduğu kimi kəskinliklə irəli sürülməmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqatda XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin təhsilin demokratikləşdirilməsi uğrunda mübarizəsi, onların pedaqoji hərəkatın genişlənməsində, ibtidai təhsilin yeni məzmunda inkişafında, təlimin ana dilində aparılmasında, milli dərsliklərin hazırlanmasında, yaşlı əhalinin təhsilə cəlb edilməsində, müəllim kadrları hazırlığındakı fəaliyyətləri sistemli şəkildə təhlil edilir, təhsilin və pedaqoji fikirin inkişafına təsirləri üzə çıxarılır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın nəticələrindən «Azərbaycanda məktəb və pedaqoji fikir tarixi» dərsliyinin, «Azərbaycan pedaqoji fikrinin antologiyası»nın, eyni adlı müntəxabatın tərtibində, ali pedaqoji məktəblərdə pedaqogikanın nəzəriyyəsi və tarixi üzrə mühazirə və seminar məşğələlərində istifadə etmək olar. Tədqiqatın nəticələri maarif və mədəniyyət tariximiz üçün də əhəmiyyətlidir.

**Tədqiqatın aprobasiyası** bir neçə yolla həyata keçirilsmişdir:

1. Tədqiqatın nəticələri ilə bağlı Gəncə Dövlət Universitetində elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş ənənəvi konfranslarda (2009-2015), 2 beynəlxalq elmi simpoziumda, 5 respublika və 6 beynəlxalq elmi-praktik konfransda məruzə və çıxışlar edilmiş, tezislər dərc olunmuşdur.

2. Gəncə Dövlət Universitetində pedaqogika nəzəriyyəsi və tarixindən, Azərbaycanda məktəb və pedaqoji fikir tarixindən mühazirə və seminar məşğələləri aparmaqla XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin təhsilin demokratikləşdirilməsi uğrundakı mübarizəsi təbliğ olunmuşdur.

3. Tədqiqatın ayrı-ayrı hissələri, probemin əhatə etdiyi materiallar və tədqiqatın nəticələri çap edilərək aprobasiyadan keçirilmişdir. Doktorantın Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının müəyyənləşdirdiyi elmi jurnallarda 10, xarici ölkənin nüfuzlu elmi nəşrində isə 5 elmi məqaləsi çap olunmuşdur.

**Tədqiqatın quruluşu.** Əsər giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə problemin aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodoloji əsası, metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan başlıca müddəalar, tədqiqatın aprobasiyası haqqında məlumat verilir.

Dissertasiyanın **"XX əsrin əvvəllərində Azərbaycanda təhsilin demokratikləşdirilməsini şərtləndirən ictimai-siyasi və mədəni şərait"** adlanan I fəsl iki yarımfəsildən ibarətdir. *"XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi şərait"* adlanan birinci yarımfəsildə XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda kapitalist münasibətlərinin sosial-iqtisadi sahədə təşəkkülü və inkişafı səciyyələndirilir, Rusiyada təhkimçilik hüququnun ləğvindən sonra kapitalizmin inkişafında yaranan dönüşün səbəbləri araşdırılır və onun Azərbaycanda kənd təsərrüfatı və sənayenin inkişafında oynadığı rol üzə çıxarılır. Əsaslandırılır ki,

neft sənayesinin inkişafı nəticəsində Azərbaycanın Rusiya və Avropanın bir sıra ölkələri ilə əlaqələri xeyli genişlənmişdi.

Yeni münasibətlərin yaranması milli burjuaziyanın təşəkkülünə şərait yaratdığı kimi Azərbaycan xalqı arasındı milli birlik ideyasını möhkəmləndirdi. XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərləri Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov kimi liberal baxışlı ziyalılar milli birlik ideyaları yaratmağa çalışır, milləti elmə, təhsilə, biliyə maarifə, milli–mənəvi diriliyə səsləyirdilər. Bu dövrdə milli burjuaziya nümayəndələri H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov kimi maarifçi messanatlar xalqın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayırdılar. Azərbaycan xalqı Çar Rusiyası tərəfindən dini, milli, hüquqi, mədəni və iqtisadi cəhətdən təzyiqlərə məruz qalaraq sıxışdırılırdı. XX əsrin əvvəllərində Azərbaycanda çoxsaylı ziyalı kadrlar yetişdi. Azərbaycan gerçəkliyinin sosial-mədəni inkişafının tələblərinə cavab verməsi ilə səciyyələnən maarifçilik hərəkatının ideologiyası və fəlsəfi görüşləri formalaşdı. Azərbaycandakı maarifçi mühit maarifçilik cərəyanına çevrildi və burjuaziyanın təsiri ilə millətin tarixi taleyində mühüm rol oynayan yeni ziyalılar nəsli formalaşdı.

Milli maarifçilər çar rejiminə qarşı mübarizə aparır, çox zaman siyasi səbəblər üzündən onların təşəbbüsləri boşa çıxırdı. Bu vəziyyət Azərbaycan xalqının istiqlalı, istiqbalı və gələcəyi üçün böyük təhlükə törədirdi. Bunu dərk edən ziyalılar xalqın maariflənməsinə daha çox çalışır, xalqı öz azadlığı uğrunda mübarizəyə hazırlayırdılar. Milli burjuaziyanın görkəmli nümayəndələri (H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov, Ş.Əsədullayev və b.), milli demokratik və inqilabi fikrin nümayəndələri (Ə.Hüseynzadə, Ə.Ağayev, M.Hadi, Ü.Hacıbəyov, Ə.Cavad və b.) dərk edirdilər ki, Azərbaycanın iqtisadi-ictimai geriliyinin əsas səbəblərindən biri milli ziyalı potenisialının kifayət qədər güclü olmaması ilə bağlıdır. Çar hökuməti milli ucqarlarda, xüsusilə də Azərbaycanda ali və orta təhsil ocaqlarının açılmasına hər vəchlə mane olurdu. Azərbaycanlı gənclər ali təhsil almaq üçün ya Rusiyaya və ya xarici ölkələrə getmək məcburiyyətində qalırdılar. XX əsrin əvvəllərində xeyli gənc Peterburq, Moskva, Kiyev və Rusiyanın digər şəhərlərində, o cümlədən, Fransa, Almaniya, İngiltərə kimi qabaqcıl kapitalist ölkələrində təhsil alaraq Azərbaycana qayıtmışdılar. Avropa mühiti onların ictimai-siyasi şüurunun formalaşmasında mühüm rol oynamışdı.

XIX əsrin sonu, XX əsrin əvvəllərində milli şüurun oyanması, milli azadlıq hərəkatının güclənməsi, milli istiqlal və istiqbal mübarizəsində ciddi irəliləyişlər nəzərə çarpırdı. Xalqı milli–mənəvi diriliyə çağıran mütərəqqi fikirli ədiblər, maarifçilər onların milli süstlükdən xilas olmaları

üçün yollar axtarırdılar. Rusiyada baş verən ictimai-siyasi hadisələrin təsiri altında milli tərəqqi, demokratiya, azadlıq haqqında ideyalar formalaşmağa başladı. Azərbaycan maarifpərvərlərinin milli dirçəlişə, milli-mənəvi diriliyə və azadlığa çağıran ideyaları meydana gəldi. Ə.Hüseynzadə türk birliyi ideyasını irəli sürdü, türk xalqlarının tərəqqisi üçün «türklük, müsəlmanlıq və avropalılıq» prinsipini əsaslandırdı.

Azərbaycan maarifpərvərləri çar Rusiyasına qarşı mübarizəni genişləndirmək məqsədilə maarifçilik hərəkatını genişləndirdilər. «Nicat», «Səadət», «Səfa» və «Nəşri-maarif» xeyriyyə cəmiyyətlərinin fəaliyyəti genişləndi. «Molla Nəsrəddin» və «Fiyuzat» jurnalları millətin mənəvi yüksəlişinə təşir göstərə biləcək məqalələrlə çıxış etməyə başladılar. Gəncədə yaradılan «Difayi» partiyası öz fəaliyyətini genişləndirdi. 1907-ci ildə polkovnik İbrahim Vəkilovun təşəbbüsü ilə Tiflisdə «Müdafiə» Partiyası yaradıldı. Rusiya müsəlmanlarının qurultayları və Azərbaycan müəllimlərinin I və II qurultayları xalqın maarifə olan ehtiyacını ödəmək istiqamətində irəliyə atılan addımlar idi.

Milli ziyalılar çar hökümətinin Azərbaycan xaqlının maarifə olan ehtiyacını həll etməyəcəklərini yaxşı bilirdi. XX əsrin əvvəllərində Azərbaycanda demokratik pedaqoji fikri maarifçilikdən daha çox, onun ictimai-milli və inqilabi vətəndaşlıq ideyaları ilə bağlı motivləri cəlb edirdi.

*"XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji hərəkatın inkişaf istiqamətləri"* adlı ikinci yarımfəsildə əsaslandırılır ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Rusiyada baş verən ictimai-siyasi şərait milli ucqarlarda, o cümlədən Azərbaycanda yeni bir canlanmanın və intibahın yaranmasına səbəb oldu. Milli maarifçilərin (A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, M.T.Sidqi və s.) demokratik əsasda özülü qoyduqları ictimai-pedaqoji fikir öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Milli məfkurəyə, milli düşüncəyə və milli dəyərlərə sahib çıxan yeni peaqoqlar nəsli (F.Köçərli, R.Əfəndiyev, N.Nərimanov, S.M.Qənizadə, M.Mahmudbəyov və b.) formalaşdı. Onlar Qori müəllimlər seminariyasının məzunları idi. Yeni üsullu məktəblərin yaradılması, təlimin ana dilində aparılması, milli dərsliklərin və uşaq ədəbiyyatının yaradılması, qadınların hüquq və azadlıqlarının qorunması, millətin mənəvi yüksəlişi onların fəaliyyətlərinin əsasını təşkil edirdi. Prof. Ə.Ağayev onların fəaliyyətini yüksək qiymətləndirərək yazır: «Bu pedaqoqlar yeni, vətənpərvər maarif ordusunun tərbiyələnib yetişməsində xeyli zəhmət çəkməli oldular».[1] Əsasən XX əsrin

[1] Ağayeva Ə. Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz. Bakı: Elm, 2000, s.15

əvvəllərindən fəaliyyətə başlayan yeni dəstəyə Abdulla Tofiq Sur, Süleyman Sani Axundov, Abdulla Şaiq, Fərhad Ağazadə, Əli Rağib (Ağəli Qasımov), Üzeyir Hacıbəyov və bir çox başqaları daxil oldular.

XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərini daha ciddi narahat edən pedaqoji problemlər aşağıdakılardan ibarət idi: 1) məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlərin tədrisi; 2) yeni üsullu məktəblər; 3) milli məfkurəyə malik müəllim kadrları; 4) təlimin ana dilində aparılması; 5) təhsilin məzmununun milliləşdirilməsi; 6) pedaqoji prosesdə yeni təlim metodlarının tətbiqi; 7) milli dərslik və uşaq ədəbiyyatı nümunələrinin yaradılması; 8) tərbiyədə milliliyə üstünlük verilməsi. Bu yarımfəsildə XX əsrin əvvəllərində milli ziyalıları və din xadimlərini narahat edən "Bizə hansı elmlər lazımdır?" sualı ətrafında gedən mübahisələr dissertasiyada ətraflı araşdırılmış, Axund Əbu Turabın, Əlibəy Hüseynzadənin, Cəlil Məmmədquluzadənin, Ömər Faiq Nemanzadənin, Firudun bəy Köçərlinin, Məmməd Əmin Rəsulzadənin fikirlərinə münasibət bildirilmişdir.

Bu yarımfəsildə əsaslandırılmışdır ki, XX əsrin əvvəllərində nəşr olunan «Şərqi-rus» (1903-1906), «Həyat» (1905-1906), «İrşad» (1905-1908), «Təkamül» (1906-1907), «Tazə həyat» (1907-1908), «Tərəqqi» (1908-1909), «Səda» (1909-1911), «İqbal» (1912-1915), «Açıq söz» (1915-1918), «Rəhbər» (1906), «Molla Nəsrəddin» (1906-1931), «Dəbistan» (1906-1908), «Füyuzat» (1906-1908), «Yeni füyuzat» (1911), «Məktəb (1917), «İşıq» (1912), «Dirilik» (1912-1916) qəzet və jurnalları milli maarifpərvərlərimizin təhsilin demokratikləşdirilməsi uğrunda mübarizəsinin önündə getmiş, pedaqoji hərəkatın, maarifçilik hərəkatının yeni müstəvidə, yeni istiqamətdə inkişafını təmin etmişdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ən mühüm pedaqoji problemlərdən olan milli müəllim kadrlarının hazırlanması, yeni üsullu məktəblərin yaradılması, təhsilin məzmununun və təlim metodlarının yeniləşdirilməsi, məktəb yaşlı uşaqların ümumi, icbari və pulsuz təhsilə cəlb olunması, qadın təhsilinin həyata keçirilməsi, yeni proqram və dərsliklərin hazırlanması, kitabxana və qiraətxanaların açılması, mətbəələrin fəaliyyətə başlaması, təlimin ana dilində aparılması, real təcrübədən doğan nəzəri-pedaqoji fikrin və metodik tövsiyələrin hazırlanması, milli vətənpərvərlik tərbiyəsinin səmərəli yollarının tapılması və digər sahələrdə maarifpərvərlərin, maarifçi ziyalıların inadlı axtarışları, əməli işləri Rusiya türkləri arasında genişlənməkdə olan pedaqoji hərəkatın leytmotivini təşkil edirdi.

Dissertasiyanın II fəsli **"XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin pedaqoji problemlərin həlli uğrunda mübari-**

**zəsinin əsas istiqamətləri"** adlanır. Fəslin *"Azərbaycan maarifpərvərlərinin təlimin ana dilində aparılması uğrunda mübarizəsi"* adlı birinci yarımfəslində Azərbaycan maarifpərvərlərinin təlimin ana dilində aparılması uğrunda mübarizəsinin əsas istiqamətləri təhlil və təbliğ olunur. Əsaslandırılır ki, tarixin müxtəlif dövrlərində imperiyalar ayrı-ayrı xalqların milli dildə təliminə qadağa qoymuş, xırda xalqları assimilyasiyaya uğratmaq məqsədi ilə imperiya siyasətini reallaşdırmağa çalışmışlar. Rusiyada görkəmli pedaqoq-alim K.D.Uşinskinin "Ana dili" məqaləsinin nəşrindən sonra milli ucqarlarda, o cümlədən, Azərbaycanda təlimin ana dilində aparılması uğrunda qızğın mübarizə başlandı. Azərbaycan maarifpərvərləri xalq maarifi uğrundakı mübarizəni, xalqı maarifləndirməyin ən güclü silahı olan ana dilinin saflığı və inkişafı uğrundakı mübarizə ilə əlaqələndirirdilər.

XIX əsrin 60-cı illərində Rusiyada başlayan ictimai-pedaqoji hərəkat qısa bir müddətdə Azərbaycanda özünə geniş tərəfdarlar tapdı. M.F.Axundovun, H.Zərdabinin ideyaları təlimin ana dilində aparılmasına güclü mənəvi zəmin hazırladı. Təlimin ana dilində aparılması ideyasının həyata keçirilməsində M.İ.Qasirin, S.Ə.Şirvaninin, M.T.Sidqinin, S.M.Qənizadənin, H.Mahmudbəyovun, S.Vəlibəyovun, R.Əfəndiyevin, C.Məmmədquluzadənin, N.Nərimanovun və digər maarifçilərin böyük xidmətləri oldu.

Təlimin ana dilində aparılması, yeni milli məktəblərin yaradılması, ana dilli dərsliklərin hazırlanması, təhsilin məzmununun milliləşdirilməsi, yeni təlim metodlarının tətbiqi milli maarifçilərin ictimai-siyasi və pedaqoji fəaliyyətinin əsas istiqamətini müəyyənləşdirirdi. Milli dilə və təlimin ana dilində aparılmasına münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində hələ heç bir əsrdə belə kəskinliklə irəli sürülməmişdi. Milli maarifpərvərlər yaxşı bilirdi ki, ənənəvi məktəb və mədrəsəni–bu, ən kütləvi mənəvi-əxlaqi tərbiyə və ideoloji təsir silahını ruhaniliyin əlindən tamamilə almadan, dünyəvi elmin və müasir biliklərin yayıldığı yeni tipli təlim və tədris ocağına çevirmədən istiqlal və maarifçilik ideyalarına yiyələnmək olmaz. M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Şahtaxtlı, C.Məmmədquluzadə və onların həmfikirləri hesab edirdilər ki, köhnə məktəb və mədrəsə yeni maarifçiliyin ideya və təşkilati mərkəzi–hərəkət və fəaliyyət orqanı ola bilməz. Ona görə də təlimi ana dilində aparmaq üçün «üsuli-cədid» məktəblərinin yaradılmasını və milliləşdirilməsini vacib hesab edirdilər.

Həmin dövrdə Azərbaycan ictimai-pedaqoji fikrində təlimin ana dilində aparılması konsepsiyası formalaşmağa başladı. Bu ideyanın reallaşmasında Azərbaycan maarifpərvərləri K.D.Uşinskinin pedaqoji sisteminin əsasını təşkil edən ana dili təlimi məsələsinə istinad edirdilər. K.D.Uşinski

dillə təfəkkürün vəhdətdə olduğunu göstərir, dili donmuş durğun bir şey kimi deyil, doğma ölkənin təbiəti və tarixi, xalqın psixoloji xüsusiyyətləri ilə əlaqədar olaraq tarixən əmələ gələn və inkişaf edən bir hadisə kimi səciyyələndirirdi. O, xəlqilik üzərində qurulan bütün təlimin əsasına ana dilini qoymağı tələb edirdi.

Ona görə də Azərbaycanın qabaqcıl maarifpərvərləri çarizmin müstəmləkə siyasətinə qarşı mübarizə aparmaqla, məktəblərdə ana dilinin bir fənn kimi tədris olunmasına və ana dilində məktəblər açılmasına çalışırdılar. Ana dilini və onun məktəblərdə tədrisini həyati əhəmiyyətli məsələ hesab edən ziyalılar mətbuat səhifələrində həmin problemlə bağlı məqalələr çap etdirir, dilin təmizliyinə xələl gətirən, məktəblərdə tədrisini qadağan edən mövcud qanunlara qarşı öz etirazlarını bildirirdilər. Təlimin ana dilində aparılması uğrunda mübarizədə eyni platformada dayanan ziyalılar (N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, S.S.Axundov, Ü.Hacıbəyov, Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, F.Köçərli, S.M.Qənizadə, M.Mahmudbəyov və b.) müxtəlif cərəyanları təmsil edirdilər. Ana dilinin tədrisi, saflığı və yeniləşməsi uğrunda Azərbaycan ziyalılarının mübarizəsi 1906-1907-ci illərdə Bakıda çağırılan I və II müəllimlər qurultaylarında daha geniş vüsət aldı. Yarımfəsildə F.Köçərlinin, A.Səhhətin, C.Məmmədquluzadənin, F.Ağazadənin, Ü.Hacıbəyovun, N.Nərimanovun, M.Mahmudbəyovun ana dili və onun tədrisinin əhəmiyyəti haqqında fikirləri təhlil və tədqiq olunur. F.Köçərli yazırdı: «Ananın südü bədənin mayası olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını sevdiyi kimi ana dilini də sevir». Üzeyir Hacıbəyov isə deyirdi: «Bir millətin ki, dili batdı, onda o millətin özü də batar. Çünki bir millətin varlığını isbatvücud etməsinə səbəb onun dilidir». Ana dili ilə bağlı Fərhad Ağazadənin də maraqlı fikirləri var. O yazırdı: «İnsan övladının incə hisslərini dayandırmaq üçün ana dili birinci vasitədir». H.Minasazov isə yazırdı: «Dil nə qədər xalqa, onun danışıq tərzinə yaxındırsa, demək o ədəbi dildir. Belə olmasaydı, Puşkinin, Nekrasovun, Tolstoyun əsərlərinin dili ədəbi dil hesab edilməzdi».

Azərbaycan maarifpərvərlərinin XX əsrin əvvəllərində ana dili uğrunda apardıqları mübarizə öz bəhrəsini verdi. ADR hökuməti milliləşdirmə siyasətini həyata keçirərkən ana dilinə dövlət dili statusu verərək, onun öyrənilməsinə verilən saatların miqdarını xeyli artırdı. Ana dili xalqın milli sərvətinə çevrildi.

Fəslin *"Azərbaycan maarifpərvərlərinin müəllim və müəllim hazırlığı uğrunda mübarizəsi"*adlı ikinci yarılmfəslində XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin müəllim və müəllim kadrlarının hazırlığı

ilə bağlı mübarizəsi öz əksini tapmışdır. Öncə o dövrdə Güney Qafqazda dünyəvi məktəblərdə işləmək üçün müəllim kadrları hazırlığı ilə bağlı çar Rusiyasının siyasətinin mahiyyətinə aydınlıq gətirilmiş, açılan məktəblər haqqında qısa məlumat verilmişdir. Əsaslandırılmışdır ki, Azərbaycandakı məktəblər üçün müəllim kadrları hazırlığına XIX əsrin II yarısında başlanmışdır. İlk dəfə 1866-cı ildə Tiflis Aleksandrovski Müəllimlər İnstitutu təşkil edilmişdir. Görkəmli maarifpərvərlər S.M.Qənizadə, H.Mahmudbəyov, S.Ə.Əbdürrəhmanbəyli və digərləri həmin institutun məzunları olmuşlar. 1871-ci ildə Kubanda, 1876-cı ildə Qori şəhərində Müəllimlər Seminariyası fəaliyyətə başlamışdır. Qori Müəllimlər Seminariyasının nəzdində Azərbaycan şöbəsi 1879-cu ildə təşkil olunmuşdu. 1881-ci ildə İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başlamışdı.

Millətin tərəqqisinin məktəbdən, məktəbin tərəqisinin isə müəllimdən asılı olduğunu söyləyən N.Nərimanov və onun həmkarları F.Köçərli, H.Zərdabi, Ü.Hacıbəyov, A.Səhhət, A.O.Çernyayevski, S.Vəlibəyov, M.Mahmudbəyov, H.Mahmudbəyov, F.Ağazadə, C.Məmmədquluzadə ana dilində dərs deyə bilən müəllimlərin hazırlanmasını dövrün əsas tələbi kimi qiymətləndirirdilər. Bu yarımfəsildə F.Köçərli, H.Zərdabi, Ü.Hacıbəyov, A.Səhhət, A.O.Çernyayevski, S.Vəlibəyov, M.Mahmudbəyov, H.Mahmudbəyov, F.Ağazadə, C.Məmmədquluzadə, M.Ə.Rəsulzadə, N.Nərimanov və başqalarının müəllim haqqında mülahizələri ümumiləşdirilmiş, müasir dövr üçün əhəmiyyəti üzə çıxarılmışdır. Azərbaycan müəllimlərinin I və II qrultayında müəllim kadrları hazırlığı məsələsi genişliyi ilə müzakirə olunmuş, Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin Azərbaycana köçürülməsi, müəllimlərin maddi şəraitinin yaxşılaşdırılması, hüquqlarının qeyriləri ilə bərabərləşdirilməsi kimi məsələlər müzakirə olunmuşdur ki, həmin məsələlərə dissertasiyada geniş yer ayrılmışdır. Əsaslandırılmışdir ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində yetişən Azərbaycan müəllimləri xalqa sadəcə əlifba öyrətməklə kifayətlənmək istəmir, onlara milli-mənəvi dirilik, fəallıq, ictimai namus, həmrəylik, hüquq, əxlaq, milli xilas, qurtuluş, ictimai azadlıq və mübarizə savadı öyrətmək istəyirdilər. Milli hərəkatın tərkib hissəsi kimi pedaqoji hərəkat o dövrdə geniş intişar tapmışdır ki, burada da ağırlıq bütövlükdə milli ziyalıların – müəllimlərin üzərinə düşürdü. Milli məfkurəyə malik müəllim kadrlarının hazırlanması, onların elmi-pedaqoji və metodik hazırlığının yüksəldilməsi məqsədilə milli maarifçilər planlı və məqsədyönlü xeyli iş görmüşdür.

*"Azərbaycan maarifpərvərlərinin yeni məktəb uğrunda mübarizəsi"* adlı üçüncü yarımfəsildə əsaslandırılır ki, yeni məktəb uğrunda mübarizə Azərbaycan maarifpərvərlərinin fəaliyyətinin əsas istiqamətlərindən birini

təşkil edirdi. Yeni üsullu məktəblər yaratmadan xalqın maarifə olan ehtiyacını ödəmək olmazdı.

Yarımfəsildə əsaslandırılır ki, Qafqaz Təlim Dairəsinin 1900-cü ilə olan məlumatına görə, Azərbaycanda 172 ibtidai məktəbdən 91-i Yelizavetpolda (Gəncə), 81-i Bakı quberniyasında idi. Yelizavetpol quberniyasının ibtidai məktəblərində təhsil alan 6303 uşaqdan 1407-si, Bakı quberniyasında isə 8107 uşaqdan 1239-u azərbaycanlı idi. QTD üzrə fəaliyyət göstərən 1621 ibtidai məktəbdə təhsil alan 122815 şagirddən 4124-ü azərbaycanlı idi. Qafqaz üzrə fəaliyyət göstərən 157 xüsusi ibtidai məktəblərdə oxuyan 8265 şagirddən 192-si, Qafqaz üzrə 45 şəhər məktəblərində oxuyan 13073 uşaqdan 715-i (5,5%) azərbaycanlı idi.[1]

1902-ci ildə ibtidai məktəblərin sayı nisbətən artdı. Həmin dövrdə Bakı və Yelizavetpol quberniyasında 230 ibtidai məktəb fəaliyyət göstərirdi.[2] Onlardan 135-i Yelizavetpol (Gəncə) quberniyasında idi. Bu məktəblərin 39-u ikisinifli, 96-sı birsinifli məktəb idi. Burada təhsil alanlardan 23,5 faizi (8761 şagirddən 2062-si) azərbaycanlı idi. Bakı quberniyasında olan 95 ibtidai məktəbin 8-i ikisinifli, 87-si isə birsinifli idi. Təhsil alan şagirdlərdən 25,5 faizi (6197 şagirddən 1581-i) azərbaycanlı idi.

1903-cü ilin məlumatına görə, Yelizavetpol (Gəncə) quberniyasında 871557 nəfər yaşadığı halda burada 102 məktəb fəaliyyət göstərirdi. Deməli, 8544 nəfərə bir məktəb düşürdü. Bakı quberniyasında da vəziyyət acınacaqlı idi. Çar maarif məmurları özləri də azərbaycanlılar arasında təhsilin aşağı səviyyədə olmasını yazırdılar. Mənbələrdə göstərilir ki, Gəncə quberniyasında ibtidai təhsilin vəziyyəti acınacaqlıdır. Burada rus əhalisinin hər 660 nəfərinə bir məktəb, erməni əhalisinin hər 380 nəfərinə bir məktəb, azərbaycanlıların isə hər 12000 nəfərinə bir məktəb düşür. Quberniyalarda əhalinin böyük əksəriyyəti kənddə yaşadığından burada az sayda açılan məktəblər xalqın maarifə olan tələbatını ödəmirdi. O zaman məktəblər üç mənbə əsasında-dövlət xəzinəsi, kənd camaatının vəsaiti, Zemstvo vəsaiti hesabına açılırdı. Dövlətin maliyyə vəziyyəti pis olduğundan birinci mənbəyə ümid bağlamaq olmazdı. İkinci mənbədən də 7420 manat pul toplanırdı (Bakı quberniyası üzrə) ki, onunla da məqsədə çatmaq qeyri-mümkün idi. Çünki kənd camaatı çox yoxsul idi. Məktəbin fəaliyyət göstərməsi isə kəndlilərin maddi durumundan asılı idi. Vəsait toplanarkən müxtəlif maneələrə rast gəlinirdi. Nəticədə pul yığılmayanda məktəb və müəllimlər pis vəziyyətdə qalırdılar. Belə olduqda kənd camaatı

[1] Tağıyev Ə. Azərbaycanda məktəb tarixi. Bakı:Maarif, 1993

[2] Yenə orada. s.70

məktəbin dövlətin hesabına keçməsini tələb edir, yaxud da «məktəb bizə lazım deyil, özümüzü ancaq dolandırırıq» - deyib uşaqlarını məktəbə göndərmirdilər. Belə olduğu halda təbii ki, məktəblər öz-özünə bağlanırdı. Ona görə də 1903-1905-ci illərdə açılacaq məktəblərin xərcini zemstvo hesabına keçirmək istəyirdilər.

Bakı quberniyasında təhsilin vəziyyətini öyrənmək baxımından Bakı quberniyası və Dağıstan vilayəti Xalq Məktəbləri Direktorunun QTD-nin popeçitelinə 10 mart 1905-ci il tarixdə yazdığı məktuba diqqət yetirək: «Məktəb yerli şəraitdən və yerli camaatın dünyagörüşündən asılı olan məhəlli iş deyildir. Məktəb ümumxalq və dövlət işidir. Buna görə də məktəb üçün vəsait Zaqafqaziya ölkəsi torpaq gəlirindən ayrılmalıdır. Ancaq son illərdə həmin torpaq gəlirindən Bakı quberniyasının 23 məktəbi üçün cəmi 15900 manat pul ayrılmışdır. Bu vəsait çox azdır. Ona görə də məktəblərin yaşaması və yenilərini açmaq üçün əlavə məbləğ ayrılmalıdır.[1] Çar hökumətinin Azərbaycanda təhsilin inkişafına biganə yanaşmasının nəticəsi idi ki, bəzi açılan məktəblər möhkəmlənməmiş, bağlanmaq təhlükəsi ilə üzləşirdi. Qafqaz Təhsil Dairəsi üzrə 1899-cu ildə 15 xüsusi, 14 dövlət ibtidai məktəbi,[2] 1900-cu ildə 12 xüsusi, 9 dövlət ibtidai məktəbi, 1901-ci ildə 8 xüsusi və 4 dövlət ibtidai məktəbi[3] bağlanmışdı.

Azərbaycan maarifpərvərləri milli məktəbləri xalqın nicat yolu hesab edirdilər. M.Ə.Rəsulzadə yazırdı: «İbtidai məktəblər gərək ki, milli olsun. İbtidai məktəb gərək ki, yerli cəmaətə doğma olsun. Burada təlim ana dilində olsun. Bu məktəblər gərək cəmaətin məişətinə uyğun olsun. Açılan məktəblər doğma ana dilində olmadığından xalq bu məktəblərə inanmırdı. Onlar «təlim» pərdəsi altında gizlənmiş siyasəti dərk etməsələr də, «avami müxtəi bir fəhmi-təbii ilə deyəsən ki, qanmış idi».[4]

M.Ə.Rəsulzadə rus-müsəlman adı ilə açılmış məktəblərin tədris planını təhlil edərək bu qənaətə gəlirdi ki, burada müsəlmanlıqdan və yerlilikdən (millilikdən- L.N.) fəqət bir ad var idi. Həftə ərzində tədris olunan 20-30 saatdan 3 saatı türk dilinə, 2 saatı şəriət dərsinə verilirdi. 17 oktyabr hadisələrindən sonra 1881-ci ildə irəli sürülən təhsil layihəsinin yenidən təsdiq edilməsini alqışlayır, onun milli xüsusiyyətlərə üstünlük verən cəhətlərini şərh edirdi. Bu proqrama görə məktəblər hər şeydən əvvəl

---

[1] Azərbaycan ədəbiyyatı tarixi. II cild, Bakı, 1960
[2] «Açıq söz» qəzeti, 1916, № 281
[3] Кафказский календарь, 1907, s. 63-64
[4] Rəsulzadə M.Ə. İbtidai yerli məktəblər. «Tərəqqi» qəzeti, 20 noyabr 1908-ci il

milli olmalı idi. Birinci il təlim ancaq ana dilində aparılmalı, sonrakı illərdə isə rus dili məcburi bir fənn kimi tədris edilməli idi.[1]

M.Mahmudbəyov yazırdı: «Biz çalışdıq ki, mütərəqqi pedaqoji prinsiplər əsasında yeni məktəblər açılsın. Yeni məktəblər xalqımızın inkişafına, onun tanınmasına, dilinin, ədəbiyyatının, maarif və mədəniyyətinin şöhrətlənməsinə kömək edər».

Milli məktəblərlə bağlı Ü.Hacıbəyovun fikirləri də konseptual xarakter daşıyır. O, yazırdı: «Bizə türk məktəbləri - milli məktəblər lazımdır. Mən milli məktəb ona deyirəm ki, orada bütün elmlər öz ana dilimizdə tədris olunur. Əcabə, biz müəllimlər öz ana dilimizi mükəmməl bilirikmi? Biz yazıqlar hansı məktəbdə öz ana dilimizdə oxumuşuq? O ki, qaldı milli məktəblərimizə, onların sayı çox azdır. Bu məktəblər dəxi zəmanəyə müvafiq bir halda deyildir. Kəndlərdəki milli məktəblərimizin vəzifəsi əvvəla ana dilini uşaqlara mümkün qədər mükəmməl surətdə öyrətməklə bərabər rus dilini də ona təlim etdirməkdir. Rus dilini bilməmək kəndistan əhalisi üçün böyük bir müsibətdir».[2]

C.Məmmədquluzadə yazırdı ki, məktəb ana yurdun şüurlu vətəndaşlarını və dövlətin sadiq təbəələrini hazırlamaq üçün bir növ laboratoriyadır. Məktəb eyni zamanda uşaqları cəhalətdə batıb qalanlar içərisindən çıxarıb ümumdünya mədəniyyəti ilə birləşdirəcəkdir. Məktəb uşaqların dilini açacaq, onları həyatın hər bir işində iştirak etməyə hazırlayacaqdır.[3]

Yeni tipli məktəblərin yaradılmasında Azərbaycanda fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri mühüm rol oynayırdı. Burada həm azərbaycanlıların, həm də Azərbaycanda yaşayan digər millətlərin təşkil etdiyi xeyriyyə cəmiyyətlərinin fəaliyyətlərini qeyd etmək lazımdır. M.Ə.Rəsulzadə yorulmadan məktəblərin milliləşməsini təbliğ edirdi. Məktəblərin milliləşməsi nə demək idi? Məktəblərin milliləşməsi yazı və oxunun ana dilində aparılması deməkdi. Əlbəttə, məktəblərin ana dilinə keçməsi xalqın həyatında böyük irəliləyiş olardı. Ana dilininköməyi ilə şagirdlərdə millilik güclənərdi. Ana dilinin köməyi ilə keçmişə körpü salıb zəngin mədəniyyətlərini öyrənərdilər. Doğma dillərində yazıb oxumağı öyrənərək, bilik qazanaraq milli mədəniyyətlərini zənginləşdirərdilər.

XX əsrin əvvəllərində yetişən milli sahibkarlar da millətin maariflənməsi, savadlanması, mədəni və intellektual səviyyəsinin yüksəlməsi yolunda əllərindən gələni əsirgəmirdilər. Hacı Zeynalabdın Tağıyevlə

---

[1] Rəsulzadə M.Ə. İbtidai yerli məktəblər. «Tərəqqi» qəzeti, 20 noyabr 1908-ci il
[2] Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985, s. 126
[3] Məmmədquluzadə C. Əsərləri. III clddə, 2-ci cild, Bakı:Azərnəşr, 1966, s.152-153

yanaşı, Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Musa Nağıyev, İsa bəy Hacınski kimi onlarla sahibkar milli ziyalı nəslinin yetişməsində, təhsil sisteminin inkişafında müstəsna rol oynadı.

Fəslin *"Azərbaycan maarifpərvərlərinin milli dərslik və uşaq ədəbiyyatı yaratmaq uğrunda mübarizəsi"*adlanan dördüncü yarımfəslində əsaslandırılır ki, XIX əsrin 80-ci illərində meydana gələn xalq məktəbləri ilə ana dilində dərsliklər tərtibinin ikinci mərhələsi başlandı. Həm də bu dövrdə meydana gələn dərsliklər bilavasitə azərbaycanlılar üçün nəzərdə tutulmuşdu. Həmin dərslikləri iki qismə bölmək olar. Birinci qism dərsliklərlə rus məktəblərində təhsil alan şagirdlər Azərbaycan dilini öyrənirdilər. Məsələn, M.Kazımbəyin «Türk-tatar dilinin qramatikası», Mirzə Şəfi Vazeh, İvan Qriqoryevin «Kitabi-türkü», M.Əbdülhəsən bəy Vəzirovun «Samouçitel tatarskoqo yazıka», Ü.Hacıbəyovun «Türkü-rusi», «Rusi-türki lüğəti». İkinci qism dərsliklərin özünü də 2 yerə bölmək lazımdır. Onların bəziləri ayrı-ayrı məktəb açan müəllimlərin özləri tərəfindən hazırlanmışdı. Həmin məktəblərdə istifadə edilsə də, vətəndaşlıq hüququ qazana bilməyən dərsliklər idi. İkincisi isə dövrün ziyalıları tərəfindən yüksək qiymətləndirilən, dəfələrlə yenidən nəşr olunan dərsliklər idi. Belələrindən A.O.Çernyayevskinin «Vətən dili» və Vəlibəyovla birgə yazdığı «Vətən dili»nin II hissəsi, R.Əfəndiyevin «Uşaq bağçası», «Bəsürətül-ətfal», M.Mahmudbəyovun bir neçə müəlliflə şərikli yazdığı «Türk əlifbası və ilk qiraət», «İkinci il», «Üçüncü il», «İmlamız», A.Şaiqin «Uşaq gözlüyü» və s. kitabları idi. Bunlardan əlavə S.Ə.Şirvani, S.Ünsüzadə, M.M.Əfşar, M.T.Sidqi, M.M.Nəvvab və s. tərəfindən də müntəxəbat, dərs vəsaiti, lüğət tipli mətnlər məcmusu, qrammatika kitabı, əxlaq dərsliyi, çalışmalar toplusu, nəsihətnamələr və s. şəklində də kitablar tərtib olunmuşdu. Bununla da dərslik yaratmaq və uşaq ədəbiyyatının inkişafı sahəsində yeni bir ənənənin əsası qoyulmuşdu. Akademik B.Nəbiyev bu xüsusda yazır: «Bizdə ibtidai məktəblər üçün dərslik yazmağın və tərtib etməyin qiymətli ənənələri vardır. A.O.Çernyayevski, A.Şaiq, R.Əfəndiyev, A.Səhhət, F.Köçərli, S.Vəlibəyov və başqalarının yeni üsulla tərtib etdikləri dərsliklər yalnız Azərbaycan pedaqoji fikrinin tarixi üçün deyil, uşaq ədəbiyyatının inkişafı cəhətdən də böyük əhəmiyyətə malik olmuşdur».[1]

Ana dilli ibtidai məktəblərin yaradılması ana dili dərslikləri ilə yanaşı oxu materiallarına da ciddi ehtiyac yaratmışdı. Əsrlər boyu uşaqlar üçün oxu materialı kimi istifadə olunan bir çox didaktik məzmunlu əsərlər

---

[1] Nəbiyev B. Ədəbi düşüncələr. Bakı, 1971

uşaqların mənəvi-psixoloji tələbatlarını ödəmirdi. Uşaqların yaş və maraq dairələri həmin əsərlərdə nəzərə alınmırdı. Uşaq ədəbiyyatı nümunələrinin yaradılması vacib məsələ kimi qarşıda dururdu. «Əkinçi» qəzetində qaldırılan bu məsələ[1] «Ziya» qəzetində geniş müzakirə olundu. H.Zərdabi, M.Şaxtaxtlı, S.Vəlibəyov, M.Xəlilov kimi ziyalılar müzakirədə iştirak etdi.[2] «Kəşkül» qəzetində mütərəqqi ədəbi – pedaqoji fikir yaradılmasını nəzərdə tutan mütaliə kitablarının, uşaqlar üçün ədəbiyyatın əsas xüsusiyyətləri ətraflı şərh edilirdi. XX əsrin əvvəllərində isə milli maarifçilərimizin bu sahədəki fəaliyyəti daha da genişləndi. Ə.Kamalın «Füyuzati-qiraət» (1909), F.Ağazadənin «Ədəbiyyat məcmuəsi» (1912), M.Mahmudbəyov və A.Səhhətin «Türk ədəbiyyatına ilk qədəm» (1914), R.Əfəndizadənin «Türk qiraəti» (1918) dərsliklərindəki bədii nümunələrin çoxu türk ədəbiyyatından götürüldüyündən əsərlərin osmanlı dilinə məxsus xüsusiyyətləri olduğu kimi saxlanmışdı. Uşuqlar üçün əsl mənəvi sərvətin olmaması, kitabsızlıq ziyalılar arasında ciddi narahatlıq doğururdu. A.Sur,[3] H.Zərdabi[4] «Həyat» qəzetində, N.Nərimanov,[5] Ə.Ələkbərov[6] «İrşad» qəzetində ana dilində uşaqların yaş və psixoloji xüsusiyyətlərinə uyğun kitabların yaradılmasını vacib saydılar. «Molla Nəsrəddin» jurnalı da bu mübarizədən kənarda deyildi. Yuxarıda qeyd etdiyimiz kimi həmin illərdə bir sıra dərsliklər yarandı. Dərsliklərdə verilmiş bədii nümunələr, xüsusilə də uşaq poeziyası uşaqların həyatına yeni bir ab-hava gətirdi. Ədəbi yaradıcılıq yeni bir sahə kimi formalaşmağa başladı. Yeni bir istiqamətin yaranmasında A.Səhhətin, A.Şaiqin M.Ə.Sabirin mühüm xidmətləri oldu. Azərbaycan maarifçiləri yaxşı bilirdilər ki, uşaqların mütaliəsinin zənginləşməsi üçün təkcə dərsliklərlə kifayətlənmək mümkün deyil. Qiraət materiallarına ciddi ehtiyac var. Orta əsrlərdə Azərbaycanda məktəb və mədrəsələrdə tədris olunan «Bustan», «Gülüstan», «Tarixi-nadir», «Gülsüm nənə», «Cameyi Abbas» və digər kitablar dövrün tələblərinə qətiyyən cavab vermirdi. Ona görə də yeni uşaq ədəbiyyatı nümunələri yaradılmağa başlandı. Yeni yaranan uşaq ədəbiyyatı nümunələri folklordan və klassik poeziyadan qidalanırdı.

---

[1] «Əkinçi» (1875-1877). Bakı, «Azərnəşr», 1979, səh, 418-419
[2] «Ziya» qəzeti, 1880, 24 aprel, 8, 15 may

[3] Sur A. Məktəblərdə türk dili. «Həyat» qəzeti, 1905, 13 oktyabr
[4] Zərdabi H. «Açıq məktub». «Həyat» qəzeti, 1906, 14 fevral
[5] Nərimanov N. Türk dilində ilk jurnal. «İrşad» qəzeti, 1906, 9 mart
[6] Ələkbərov Ə. «Ədəbiyyatımıza dair». «İrşad» qəzeti, 1906, 21 iyul

XX əsrin əvvəllərində uşaq ədəbiyyatı sahəsində fəaliyyət göstərən yazıçı və şairlərin sayı artır, A.Şaiq, A.Səhhət, M.Ə.Sabir, S.S.Axundov, S.M.Qənizadə məhsuldar fəaliyyətləri ilə zəngin bədii ədəbiyyat nümunələri yaratmağa nail olurlar. Uşaq ədəbiyyatı isə müstəqil ədəbi yaradıcılıq sahəsi kimi özünü təsdiq edir, bu illərdə qazanılan uğurlar uşaq ədəbiyyatının sonrakı inkişafına güclü təsir göstərir.

*"Azərbaycan maarifpərvərləri qadın təhsili haqqında"* adlanan beşinci yarımfəsildə əsaslandırılır ki, XX əsrin əvvəllərində məfkurə və yaradıcılıq etibarilə bir-birindən fərqlənən maarifpərvər ziyalılar qadınların cəhalət girdabından qurtarmalarını maariflənməkdə görür, qadın təhsili, təlimi və tərbiyəsi ideyasını Avropa və rus maarifçiləri kimi ön plana çəkirdilər.

H.Zərdabi gənc nəslin tərbiyəsi üçün ilk növbədə anaların tərbiyəli olmasını vacib sayırdı. Oxumuş, yaxşı tərbiyə almış analar öz uşaqlarında yüksək insani keyfiyyətlər aşılayır. Deməli, cəmiyyətin tərəqqisi anaların maariflənməsindən çox aslıdır. H.Zərdabi «Ünas tayfası elmdən bixəbərdir»[1]-deyə öz narazılığını bildirirdi. O, tərbiyənin əsasının ailədə qoyulduğunu, burada ananın üzərinə böyük vəzifə düşdüyünü göstərərək yazırdı: «Tərbiyənin binası ana ilədir, uşaq 7-8 yaşına gəlincə onu ana tərbiyə edir, ona binaən ünas tayfası tərbiyəsiz qalmamalıdır».[2] H.Zərdabi ananı gənc nəslin ilk müəllimi adlandırırdı. Bu, gənc nəslin tərbiyəsində məktəbin, müəllimi, böyük rol oynadığını göstərirdi. Bununla belə o, ailə tərbiyəsinin, ana tərbiyəsinin məktəb və müəllimlə birlikdə aparıldıqda daha yaxşı nəticə verdiyini qeyd edirdi. Ona görə də yazırdı: «Yalnız məktəb cocuğu tərbiyə və mədəniyyət sahibi etməyə məqdur deyil. Ancaq savadlı, bilikli ana öz övladının tərbiyəsi ilə daha mükəmməl məşğul olar və uşaqda kitaba, dəftərə məhəbbət hissini gücləndirə bilər».[3]

M.T.Sidqi «Qadının zinəti cəvahirat deyil» ideyasını təbliğ edir, öz fikrini belə ümumiləşdirirdi: «Hüsün-əxlaqa, ədəb və tərbiyəyə vaqif olan valideynlər balalarının təlim və tərbiyəsini özünün bəzənməsindən vacib bilirlər».[4] Həmin yarımfəsildə S.M.Qənizadənin, N.Nərimanovun qadın azadlığı və təhsili ilə bağlı fikirləri təhlil olunur. N.Nərimanov yazırdı ki, çarşab bizim arvadların zənciridir. Bu zəncir gec-tez qırılmalıdır. Çarşab məsələsini Qurana istinad edərək həll etməyə çalışanlara cavab olaraq

---

[1] «Əkinçi» (1875-1877). Bakı, «Azərnəşr», 1979
[2] «Əkinçi» qəzeti, 1876-ci il, № 13
[3] «Əkinçi» qəzeti, 1876-ci il, № 13
[4] Sidqi M.T. Seçilmiş pedaqoji əsərləri. Bakı, «Maarif», 1967, səh.12

Nərimanov yazırdı: «Onlar düşünmürlər ki, min üç yüz il bu barədə bəhs olunubdur. On min il də bəhs olunsa, yenə də hər iki tərəf müəyyən bir nəticəyə gəlməyəcəkdir».

N.Nərimanov qadınların çarşabdan xilas olmasını daha dəhşətli məsələlərdən asılı hesab edirdi ki, bu da istismar, zülm və hüquqsuzluq idi. Nərimanov göstərirdi ki, «daha dəhşətli məsələlər» düzəlməsə, yəni mövcud quruluş dəyişməsə, «çarşab məsələsi» təbii yolla getməyəcəkdir.

N.Nərimanovun qadın azadlığına aid fikirləri sonralar təkmilləşmiş və daha da inkişaf etmişdir. M.H.Şeyxzadə, Ə.M.Topçubaşov, Ə.Ağayev kimi görkəmli ziyalılar da maarifi nadanlıqdan qurtarmağın yeganə yolu hesab edirdilər. Onların fikirləri XX əsrin əvvəllərində bir intibah yaratdı. İlk müsəlman qız məktəbləri meydana gəldi. O dövrdə Azərbaycanda «Müqəddəs Nina», «Müqəddəs Ripsime» və başqa xeyriyyə cəmiyyətlərinin qız məktəbləri var idi. Qısaca olsa da, qeyd edək ki, XX əsrin əvvəllərində pərvəriş tapan qadın təhsili üçün XIX əsrin II yarısında Azərbaycanda zəngin təcrübə toplanmışdı. Belə ki, «Müqəddəs Nina» qadın xeyriyə cəmiyyəti 1848-ci ildə Şamaxıda qız məktəbi açdı. 1850-ci ildə İrəvanda «Müqəddəs Ripsime» qadın xeyriyə cəmiyyətinin qız məktəbi fəaliyyət göstərirdi. Şamaxıda açılan «Müqəddəs Nina» məktəbində cəmi 24 nəfər azərbaycanlı qızı təhsil alırdı.

«Müqəddəs Nina» qız məktəbləri ibtidai təhsil verən ocaqlar olmuş, sonralar beşsinifli və yeddisinifli məktəblərə çevrilmişdi.

XIX əsrin maarifçiliyi Azərbaycan təhsil mədəniyyətinə yeni ideyalar, fikirlər, mövzular gətirdi. Vətənpərvərlik, azadlıq motivləri yeni yaranan əsərlərin mənasını təşkil edirdi. Maarifçilik ideyaları yeni ədəbi qüvvələrin meydana çıxmasına səbəb oldu. Maarifçilik hərəkatı Azərbaycanda ziyalı qadınların yetişməsində mühüm rol oynadı.

1901-ci ildə H.Z.Tağıyevin qız məktəbinin fəaliyyətə başlaması Şərqdə çox böyük elmi-mədəni hadisə idi. Bu münasibətlə Bağçasarayda İsmayıl Kaspirinski həmin günü Rusiya müsəlmanlarının və maarif dünyasının yaddaşında böyük gün kimi səciyyələndirirdi, Bağçasaray şəhər rəisi Mustafa ibn Davud məktəbin müsəlman dünyasına işıq saçacağını bildirirdi.[1]

1905-ci ildə Bakı və Gəncə quberniyasında xeyli qız təhsil alırdı. Həmin il Gəncə quberniyasında 4 ibtidai qız məktəbi, 20 qarışıq məktəb açılmışdı. Quberniyada 156 məktəb fəaliyyət göstərirdi ki, orada da 10082 şagird təhsil alırdı. Bunlardan yalnız 1641 nəfəri qız idi. Bakı quber-

---

[1] Mərdənov M. Azərbaycan təhsil tarix. I cild. Bakı, «Təhsil», 2011, səh. 126

niyasında 1900-1905-ci illər ərzində 6 qız məktəbi, 17 qarışıq məktəb yaradılmışdır. Quberniyanın 120 ibtidai məktəbində 9677 nəfərdən 3884 nəfəri qız idi. 1901-ci ildə Gəncədə Bağbanlar məhəlləsində birsinifli rus-tatar qız məktəbi açılmışdı. 1903-cü ildə Gəncədə ikinci belə bir məktəb açılmışdı.

XX əsrin əvvəllərində Bakıda bir neçə xüsusi qız məktəbi fəaliyyət göstərirdi. 1900-ci ildə Tutovanın açdığı I dərəcəli qız məktəbində 224 şagird təhsil alırdı. Həmin ildə açılan II dərəcəli digər qız məktəbində isə 43 şagird oxuyurdu.

Tədqiqat zamanı aşağıdakı **nəticəyə** gəlinmişdir:

1. XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycanda kapitalist münasibətlərinin sosial-iqtisadi sahədə təşəkkülü və inkişafı ilə səciyyələnir.

2. Kapitalizmin inkişafı, cəmiyyətin sinfi tərkibində baş verən dəyişikliklər, regionun ayrı-ayrı əraziləri arasında iqtisadi birliyin yaranması, iqtisadi və mədəni mərkəzlərin yüksəlməsi kimi amillər, vahid dili, mədəniyyəti, ərazisi, iqtisadi həyatı olan Azərbaycan xalqının bir millət kimi formalaşmasına səbəb oldu.

3. Yeni münasibətlərin yaranması milli burjuaziyanın təşəkkülünə şərait yaratdığı kimi Azərbaycan xalqı arasındı milli birlik ideyasını möhkəmləndirdi. Azərbaycandakı maarifçi mühit maarifçilik cərəyanına çevrildi və burjuaziyanın təsiri ilə millətin tarixi taleyində mühüm rol oynayan yeni ziyalılar nəsli formalaşdı. Milli şüurun oyanması, milli azadlıq hərəkatının güclənməsi, milli istiqlal və istiqbal mübarizəsində ciddi irəliləyişlər nəzərə çarpırdı.

4. XX əsrin əvvəllərində Azərbaycanda demokratik pedaqoji fikri maarifçilikdən daha çox, onun ictimai-milli və inqilabi vətəndaşlıq ideyaları ilə bağlı motivləri cəlb edirdi.

5. XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərini daha ciddi narahat edən pedaqoji problemlər aşağıdakılardan ibarət idi: 1) məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlərin tədrisi; 2) yeni üsullu məktəblər; 3) milli məfkurəyə malik müəllim kadrları; 4) təlimin ana dilində aparılması; 5) təhsilin məzmununun milliləşdirilməsi; 6) pedaqoji prosesdə yeni təlim metodlarının tətbiqi; 7) milli dərslik və uşaq ədəbiyyatı nümunələrinin yaradılması; 8) tərbiyədə milliliyə üstünlük verilməsi.

6. Rusiyada gedən ictimai-pedaqoji hərəkat Azərbaycana da güclü təsir göstərdi. Baş verən ictimai-siyasi hadisələr xalqın mübarizəsi, maarif müəssisələrinin, məktəblərin genişlənməsi, təhsilin ana dilində, pulsuz və ümumi olması tələblərini irəli sürməyə şərait yaratdı, pedaqoji hərəkatın canlanmasına təsir göstərdi. Milli dilə və təlimin ana dilində aparılmasına

münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində irəli sürüldü.

7. M.F.Axundovun «Əgər xalq tərbiyə edilməzsə və bütün camaat savadlı olmazsa, çəkdiyimiz bütün zəhmətlər heçə-puça çıxacaqdır»–fikri XX əsrin əvvəllərində milli ziyalıların fəaliyyət proqramına çevrildi. Onlar artıq xalqa sadəcə əlifba öyrətməklə kifayətlənmək istəmir, xalqa milli-mənəvi dirilik, fəallıq, ictimai namus, həmrəylik, hüquq, əxlaq, milli qurtuluş, ictimai azadlıq və mübarizə savadı istəyirdilər.

8. Təhsilin demokratikləşdirilməsi problemi XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərini düşündürən ən ciddi məsələlərdən biri idi.

9. XX əsrin əvvəllərində nəşr olunan qəzet və jurnallar təhsilin demokratikləşdirilməsi uğrunda mübarizənin önündə gedir, pedaqoji hərəkatın, maarifçilik hərəkatının yeni müstəvidə, yeni istiqamətdə inkişafını təmin edirdi.

10. XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji mühitin formalaşmasında kitabxana və qiraətxanalar mühüm rol oynayırdı. Azərbaycan xalqının milli şüurunun, siyasi dünyagörüşünün formalaşmasına, təhsil səviyyəsinin yüksəlməsinə, kitabxana, qiraətxana, xalq evləri, klublar, yeni yaradılan məktəblər təkan verirdi.

11. XX əsrin əvvəllərində ümumi mədəni yüksəlişlə əlaqədar olaraq Azərbaycanda «Nicat», «Nəşri-maarif», «Səfa», «Səadət» və digər xeyriyyə cəmiyyətləri yarandı. Bu cəmiyyətlərin fəaliyyəti nəticəsində Azərbaycan həyatının bütün sahələri–maarif, elm, incəsənət, teatr, kadr hazırlığı, mətbuat, ədəbiyyat öz inkişafının yeni mərhələsinə daxil oldu.

12. Təlimin ana dilində aparılması, yeni milli məktəblərin yaradılması, ana dilli dərsliklərin hazırlanması, təhsilin məzmununun milliləşdirilməsi, yeni təlim metodlarının tətbiqi milli maarifçilərin ictimai-siyasi və pedaqoji fəaliyyətinin əsas istiqamətini müəyyənləşdirirdi. Milli dilə və təlimin ana dilində aparılmasına münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində hələ heç bir əsrdə belə kəskinliklə irəli sürülməmişdi. Milli maarifpərvərlər yaxşı bilirdi ki, ənənəvi məktəb və mədrəsəni – bu ən kütləvi mənəvi-əxlaqi tərbiyə və ideoloji təsir silahını ruhaniliyin əlindən tamamilə almadan, dünyəvi elmin və müasir biliklərin yayıldığı yeni tipli təlim və tədris ocağına çevirmədən istiqlal və maarifçilik ideyalarına yiyələnmək olmaz. M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Şahtaxtlı, C.Məmmədquluzadə və onların həmfikirləri hesab edirdilər ki, köhnə məktəb və mədrəsə yeni maarifçiliyin ideya və təşkilati mərkəzi–hərəkət və fəaliyyət or-

qanı ola bilməz. Ona görə də təlimi ana dilində aparmaq üçün «üsuli-cədid» məktəblərinin yaradılmasını və milliləşdirilməsini vacib hesab edirdilər.

13. XIX əsrin sonu, XX əsrin əvvəllərində yetişən Azərbaycan müəllimləri xalqa sadəcə əlifba öyrətməklə kifayətlənmək istəmir, onlara milli-mənəvi dirilik, fəallıq, ictimai namus, həmrəylik, hüquq, əxlaq, milli xilas, qurtuluş, ictimai azadlıq və mübarizə savadı öyrətmək istəyirdilər. Milli hərəkatın tərkib hissəsi kimi pedaqoji hərəkat o dövrdə geniş intişar tapmışdır ki, burada da ağırlıq bütövlükdə milli ziyalıların–müəllimlərin üzərinə düşürdü. Milli məfkurəyə malik müəllim kadrların hazırlanması, onların elmi-pedaqoji və metodik hazırlığının yüksəldilməsi məqsədilə milli maarifçilər planlı və məqsədyönlü xeyli iş görmüşdür.

14. Yeni məktəb uğrunda mübarizə Azərbaycan maarifpərvərlərinin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Yeni üsullu məktəblər yaratmadan xalqın maarifə olan ehtiyacını ödəmək olmazdı.

15. XX əsrin əvvəllərində yetişən milli sahibkarlar da millətin maariflənməsi, savadlanması, mədəni və intellektual səviyyəsinin yüksəlməsi yolunda əllərindən gələni əsirgəmirdilər. Hacı Zeynalabdın Tağıyevlə yanaşı Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Musa Nağıyev, İsa bəy Hacınski kimi onlarla sahibkar milli ziyalı nəslinin yetişməsində, təhsil sisteminin inkişafında müstəsna rol oynadı.

16. Dövrün tələblərinə cavab verən məktəbi, yüksək ixtisaslı müəllimi, stabil milli dərsliyi olan millətlər həmişə tərəqqinin önündə gediblər. Milli dərslik, xüsusilə əlifba kitablarının yazılması həmişə pedaqoji fikir klassiklərini ciddi narahat etmişdir. «Bizdə ibtidai məktəblər üçün dərslik yazmağın və tərtib etməyin qiymətli ənənələri vardır. A.O,Çernyayevski, A.Şaiq, R.Əfəndiyev, A.Səhhət, F.Köçərli, S.Vəlibəyov və başqalarının yeni üsulla tərtib etdikləri dərsliklər yalnız Azərbaycan pedaqoji fikrinin tarixi üçün deyil, uşaq ədəbiyyatının inkişafı cəhətdən də böyük əhəmiyyətə malik olmuşdur».

17. XX əsrin əvvəllərində Azərbaycanda milli dərsliklərin yaranmasına milli mətbuat nümunələrinin nəşri mühüm təsir göstərdi. A.Şaiqin «Uşaq gözlüyü» (1910), «Gülşəni-ədəbiyyat» (1910), «Gülzar» (1912), Q.Rəşadın «Qafqaz coğrafiyası» (1910), Ü.Hacıbəyovun «Hesab məsələləri» (1907), Qəmərlinski, M.Nərimanbəyov və başqalarının «Ana dili» (1907) və b. əsərlər meydana gəldi.

18. Uşaq ədəbiyyatı yeni dövrün, məktəb və maarif həyatının, məktəblərdə ana dili tədrisinin və ana dilində dünyəvi məktəblərin açılmasının zəruri tələbi, ədəbi–pedaqoji hərəkatın ehtiyacı kimi yaranmışdı.

19. XX əsrin əvvəllərində məfkurə və yaradıcılıq etibarilə bir-birindən fərqlənən maarifpərvər ziyalılar qadınların cəhalət girdabından qurtarmalarını maariflənməkdə görür, qadın təhsili, təlimi və tərbiyəsi ideyasını Avropa və rus maarifçiləri kimi ön plana çəkirdilər.

Dissertasiyanın məzmunu ilə bağlı iddiaçının aşağıdakı **tezis və məqalələri** nəşr olunmuşdur:

1. XX əsrin əvvəllərində təhsilin demokratikləşdirilməsi uğrunda mübarizədə Məmməd Əmin Rəsulzadənin rolu / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 87- ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların Ümumrespublika konfransının materialları. Qafqaz Universiteti, 06-07 may 2010-cu il, s.413-416

2. XX əsrin əvvəllərində Azərbaycanda təhsilin demokratikləşdirilməsi uğrunda mübarizədə "Molla Nəsrəddin" jurnalının rolu / "Azərbaycan təhsili yeni inkişaf mərhələsində." mövzusunda Respublika elmi-praktik konfransı. Bakı, 25-26 noyabr 2010-cu il, s.415-419

3. XX əsrin əvvəllərində Azərbaycan müəllimlərinin təhsilin demokratikləşdirilməsi uğrunda mübarizəsi / Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri. Ümummilli Lider H.Əliyevin anadan olmasının 88-ci il dönümünə və müasir Azərbaycan dövlətçiliyinin 93 illiyinə həsr edilmiş Beynəlxalq konfransın materialları. Bakı 4-5 may 2011, s. 428-431

4. XX əsrin əvvəllərində Azərbaycanda təhsilin ana dilində aparılması uğrunda mübarizə / Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri Beynəlxalq konfransın materialları, Naxçıvan, 27-28 iyun 2011, s. 222-223

5. Azərbaycan müəllimlərinin milli məktəb konsepsiyası // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi), Bakı, 2011, №1, s. 204-208

6. Nəriman Nərimanov qadın təhsili və azadlığı haqqında / AMEA Milli Azərbaycan Tarixi Muzeyi. Müsəlman Şərqində ilk dünyəvi qız məktəbinin yaradılmasının 110 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Simpoziumun tezisləri. Bakı, 6-7 oktyabr 2011-ci il, s. 22

7. Nəriman Nərimanov qadın təhsili və azadlığı haqqında / AMEA Milli Azərbaycan Tarixi Muzeyi. Müsəlman Şərqində ilk dünyəvi qız məktəbinin yaradılmasının 110 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Simpoziumun məruzələri. Bakı, 6-7 oktyabr 2011-ci il, s.118-120

8. XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin təhsil konsepsiyası: dünyəvi yoxsa dini təhsil / Azərbaycan Respublikası Təhsil Nazirliyi, Doktorantların və gənc tədqiqatçıların XVI Respublika Elmi Konfransının materialları, Bakı, 21-23 dekabr, 2012-ci il, s.305-308

9. XX əsrin əvvəllərində qadın azadlığı və təhsili haqqında Nəriman Nərimanovun mübarizəsi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi Əsərlər, 2011, №3, s.153-157
10. XX əsrin əvvəllərində təhsilin demokratikləşdirilməsi uğrunda mübarizədə Azərbaycan maarifpərvərlərinin rolu // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi Əsərlər, 2011, №4, s.301-306
11. XX əsrin əvvəllərində Azərbaycanda təhsilin demokratikləşdirilməsi uğrunda mübarizədə Üzeyir Hacıbəyovun rolu // BDU, Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), 2011, №4, s. 215-217
12. XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji mühit // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, 2012, №1, s.187-191
13. XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin təlimin ana dilində aparılması uğrunda mübarizəsi // Pedaqoji Universitet Xəbərləri, 2012, № 3, s.246-252
14. Борьба Просветителей Азербайджана за обучение на родном языке и за национальные школы начала XX века // Казахский национальный университет имени Аль-Фараби, Вестник Казну, серия «Педагогические науки», Алматы, 2012 №2 (36), s.13-17
15. Azərbaycan maarifpərvərlərinin milli dərslik və uşaq ədəbiyyatı yaratmaq uğrunda mübarizəsi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi Əsərlər, 2012, №2, s.243-249
16. XX əsrin əvvəllərində Azərbaycanda təhsilin demokratikləşdirilməsini şərtləndirən ictimai-siyasi və mədəni şərait / Ümumi orta təhsilin müasir problemləri mövzusunda Beynəlxalq Elmi konfransının materialları. Naxçıvan 24 noyabr, 2012-ci il, s.274-275
17. XX əsrin əvvəllərində təhsilin demokratikləşdirilməsi uğrunda mübarizədə Seyid Hüseynin rolu / Doktorant və gənc tədqiqatçıların XVII Respublika Elmi konfransının materialları. II cild. Bakı 2013, s.165-166
18. XX əsrin əvvəllərində Azərbaycan müürifpərvərlərinin qadın təhsili uğrunda mübarizəsi / Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 6 dekabr, 2013, s.137-138
19. XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi şərait // Humanitar elmlərin öyrədilməsinin aktual problemləri. (Ali məktəblərarası elmi məqalələr məcmuəsi), 2013, № 2, s.328-334
20. Development of pedagogical movement in Azerbaijan in the early twentieth century (XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji hərəkatın inkişaf istiqamətləri) / The sixth international conference “Modern

challenges of education” Gori State Teaching University, Georgia, 2013 november 15-16, 2013 Gori, Georgia.

21. XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin “təbii metod (lal metod)” ilə bağlı müzakirələri / Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorant və gənc tədqiqatçıların XVIII Respublika Elmi konfransının materialları. II cild. Bakı, 2013, s.399-402

22. Борьба за демократизацию образования в начале XX века // «Молодой учёный» IV Международная научная конференция. Педагогика: Традиции и инновации, Челябинск, 2013, s.19-23

23. XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin müəllim və müəllim hazırlığı uğrunda mübarizəsi / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider H.Əliyevin anadan olmasının 91-ci il dönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransının materialları. Bakı, 05-07 may, 2014-cü il, s.530-533

24. Azərbaycan pedaqoji fikir tarixində dərslik problemi (XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri) // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2014, № 2, s.259-261

25. XX əsrin əvvəllərində görkəmli Azərbaycan mütəfəkkiri Hüseyn Cavidin müəllim və müəllim hazırlığı uğrunda mübarizəsi / Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, 05-06 dekabr 2014-cü il, s. 327-330

26. Роль Азербайджанских просветителей в демократизацию образования в начале XX века // Образование на протяжении всей жизни: разнообразие идей, концепций, форм, методов, технологий. Том 1. Политика образования на протяжении всей жизни: глобальный, национальный и региональный контекст. Международная монография по итогам акции. «Неделя образования взрослых». 2012-2014 г.г. Санкт-Петербург 2014, с.254-256

27. XX əsrin əvvəllərində təhsilin demokratikləşdirilməsi uğrunda mübarizədə Azərbaycan maarifpərvərlərinin vətənpərvərlik problemi // Humanitar elmlərin öyrədilməsinin aktual problemləri (Ali məktəblər arası elmi məqalələr məcmuəsi), Bakı, 2015, № 2, s.

28. Азербайджанские просветители и их роль в демократизации образования в первой половине XX века // РОО “Дом Европы в Санкт – Петербурге” Санкт – Петербургский государственный Институт психологии и социальных функций непрерывного образования в процессе подготовки социально-педагогоческих кадров. Санкт – Петербург – Баку – 2015. с.93-95

**Нагиева Л.Н.**

## Борьба Азербайджанских просветителей за демократизацию образования в начале XX века.

### Резюме

Диссертация состоит из введения, двух глав, вывода и списка использованной литературы. Во введении обоснована актуальность исследования, объект и предмет исследования, определены цель, задачи, методологические основы, методы, его теоретическое и практическое значения, обоснованы представленные на защиту научные положения и полученные результаты.

Первая глава диссертации «Социально-политические и культурные условия, обусловливающие демократизацию образования в Азербайджане в начале XX века» состоит из двух параграфов. В этой главе рассматриваются общественно-политическая обстановка в Азербайджане в начале XX века, формирование новых взглядов на фоне экономических отношений, а также возбуждение национального самосознания, влияющего на просветительское движение времени.

Вторая глава диссертации «Основные направления борьбы просветителей в Азербайджане для решения педагогических проблем в начале XX века» охватывает три параграфа, где рассматривается и анализируется борьба просветителей за новаторские идеи отечественного образования, представителями которого являлись выдающиеся личности.

Создание новых национальных школ, соответствующих духу эпохи и времени, изменение содержания образования, создание учебников и учебных пособий на родном языке - было настоящим революционным переворотом в сфере образования. Именно эти события послужили стимулом для дальнейшего развития школ на родном языке, а также подготовке учительских кадров для школ Азербайджана, и в дальнейшем процветанию национальной науки и образования.

В конце диссертации представлены общие выводы и рекомендации, полученные на основе проведённого исследования, а также дан список используемой литературы в процессе исследования.

**L.N.Naghiyeva**

# The struggle for the democratization of education of Azebaijan educational persons in the early twentieth century

## Summary

The work is consists of the introduction, two chapters, the result and the list of the used literature. The urgency of the problem was based in the introduction and was reported about the object of study, subject, purpose, objectives, and methodological basis, methods, scientific innovation, theoretical and practical importance, the main provisions of defense, the approbation of research. The first chapter consists of one chapter and two half-chapters named" The socio-political and cultural situation which is conditioned the democratization of education in Azerbaijan at the beginning of the twentieth century. Here the social and political, scientific and cultural conditions are analyzed in Azerbaijan at the beginning of the twentieth century, the main directions of development of pedagogical movement investigated. The second chapter of the dissertation is called" the main directions of the struggle on the solution of pedagogical problems of Azebaijan educational persons in the beginning of the twentieth century. Conducting training in the home language of Azerbaijan educational persons, teachers and training of teacher staff, new school, the national textbooks, creating children's literature and the struggle for women's education is being investigated and analyzed in this chapter. The scientific results are listed at the end of the research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**Нагиева Ламия Низами гызы**

# БОРЬБА АЗЕРБАЙДЖАНСКИХ ПРОСВЕТИТЕЛЕЙ ЗА ДЕМОКРАТИЗАЦИЮ ОБРАЗОВАНИЯ В НАЧАЛЕ XX ВЕКА

5804.01 – Общая педагогика, история
педагогики и образования

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора
философии по педагогике**

**Б А К У – 2 0 1 5**